*"Əməkdar müəllimlərimizi tanıyaq"*

# Dərsə hazır olmaları ən gözəl hədiyyəsi oldu

## *Sahibə Abbasova:* "Qadınlar üçün dəyərli olan gündən şagirdlərimi stimullaşdırmaq üçün istifadə etdim"

2012-ci ildən Əməkdar müəllim Sahibə Abbasova Qərbi Azərbaycandandır. 1959-cu ildə Qərbi Azərbaycanın Qarakilsə rayonunun Vaqudi kəndində anadan olub. 1976-1980 illərdə Naxçıvan Dövlət Pedoqoji İnstitutunun fizika -riyaziyyat fakültəsində təhsil alıb. "Riyaziyyat müəllimliyi" ixtisası üzrə məzun olan gənc S.Abbasova təyinat alaraq təhsil aldığı Vaqudi kənd orta məktəbində müəllimliyə başlayıb. İlk dəfə dərsinə girdiyi sinfin şagirdləri ilə aralarında cəmi 4 yaş fərq olub: "Dərsə başladığım gün X sinifdə dərsə girdim. Aramızda yaş fərqinin az olmasından bir az narahat olmuşdum. Amma narahatlığa dəyməzmiş. Qısa zamanda şagirdlərimlə ünsiyyət qurdum, onların sinif rəhbəri təyin edildim və indiyə qədər də ilk dəfə əlimə jurnal alıb dərsə girdiyim həmin sinfin şagirdləri məni unutmurlar".



Deyəsən, axı, Əməkdar müəllim S.Abbasova da onları unutmur. 8 mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində yaddaşında yenə onlar var: "Söz vaxtına çəkər, deyiblər, 8 mart ərəfəsində həmin sinfə müraciət etdim. Soruşdum ki, kim məni təbrik etmək istəyir? Hamısı biri-birinin üzünə baxıb əlini qaldırdı. Əksəriyyətinin əli havada idi. Dedim, məni təbrik eləmək istəyən növbəti dərsə hazırlıqlı gəlsin, "5" alan məni təbrik etmiş olacaq. Gözlədiyimdən də yaxşı nəticə almışdım, özünün "5" qiymətini mənə hədiyyə edən şagirdlərimin sayı həddindən çox oldu. Sinifdə 22 şagird təhsil alırdı, hər biri o gün hazırlıqlı idi. Sevindim ki, qadınlar üçün dəyərli olan gündən şagirdlərimi stimullaşdırmaq üçün istifadə etdim və onların hər birinin dərsə hazırlıqlı olmasına nail oldum".



1 il sonra sevimli şagirdlərindən ayrılıb Sahibə müəllim. Ailə həyatı qurması ilə əlaqədar fəaliyyətini Masis rayonu Kalinino qəsəbəsində davam etdirib.

Erməni təcavüzünün başlaması ilə 1988-ci ildə evini, yurdunu tərk etmək məcburiyyətində qalan S.Abbasova müəllimlik fəaliyyətinə Azərbaycanda davam edib. Əvvəlcə, yəni 15 il 240 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi işləyib, 2006-2007-ci tədris ilindən isə 54 nömrəli tam orta məktəbin direktoru təyin edilib.

S.Abbasovanın fəaliyyəti məktəbin uğurlarına uğur qatıb. Məktəb 2014\2015-ci tədris ilinin nəticələrinə görə,"İlin ən yaxşı məktəbi"müsabiqəsinə qatılıb və ikinci dəfə qalib olub. Müəllimləri diaqnostik qiymətləndirmədə yüksək nəticə göstərərək məktəbi rayon üzrə birinciliyə çıxarıb. Sadəcə müəllimlərin yox, IX siniflərin buraxılış imtahanlarının, son iki ildə isə, həm də IV siniflərdə qiymətləndirmə nəticələrinə görə ön sıralarda yer almasında direktor kimi onun da payı var.

# "Peşə təhsilinə marağım məni bu sahəyə gətirdi"

## *Salatın Mərdanova:* "Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura təhsili almaq istəyirəm"



Peşə təhsili müəssisələrində 3368 müəllimdən 2195 nəfəri qadındır. Onlardan biri Salatın Mərdanova İctimai İaşə və Xidmət Üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində riyaziyyat müəllimidir.

S.Mərdanova Bakı Dövlət Universitetinin Mexanika-Riyaziyyat fakültəsinin məzunudur. 2016-2018-ci illərdə Azərbaycan Dövlət Pedoqoji Universitetinin riyaziyyatın tədrisi metodikası fakültəsinin "Riyaziyyatın Tədrisi Metodikası və Metodologiyası, Riyaziyyat müəllimliyi" üzrə magistr təhsili alıb. 2020-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsinə qatılaraq uğur qazanıb və peşə təhsili müəssisəsində işə başlayıb: "Peşə təhsili müəssisələrinə böyük marağım məni buraya gətirib çıxartdı. Burada əsas hədəfimiz peşə təhsilində oxuyan tələbələrin buraxılış imtahanlarına hazırlanması və təhsillərini davam etdirmələri üçün şərait yaratmaqdır".

S.Mərdanova fəal müəllimlərdəndir. O, Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi marker müəllim hazırlığı kurslarına qatılıb və imtahandan uğurla keçib: "DİM-in təşkil etdiyi imtahanlarda açıq tipli tapşırıqların yoxlanmasında iştirak edirəm. Müəllimlərin işə qəbulu müsabiqəsində özümü sınayır, peşəkarlıq səviyyəmi yoxlayır, öz üzərimdə işləyərək daim inkişaf etməyə çalışıram".

S.Mərdanova özünü inkişaf etdirmək üçün təlim və kurslara da yazılır: "2023-cü ilin may ayından 6 aylıq "Front-End" kurslarında iştirak etdim. Burada riyaziyyatın tətbiqi tərəflərini öyrənmək nəinki özüm üçün, həm də tələbələrimə bu işdə stimul olmaq baxımından da faydalı oldu. Hazırda ingilis dilində danışıq səviyyəmi artırmaq istiqamətində çalışıram. Hesab edirəm ki, bu, beynəlxalq təcrübəni də araşdıraraq, öz pedoqoji fəaliyyətimdə düzgün istifadə etməyimə kömək edəcək. Bir sözlə, əlimdən gələni edirəm ki, təhsildə monotonluqdan qaçım".

S.Mərdanova tədris prosesində ən müasir dərsin tələblərini ödəməyə çalışır: "Tədris prosesində İKT-dən istifadə edirəm. Məsələn, riyazi fiqurların situasiya məsələlərinin animasiyanın köməyi ilə nümayişi təxəyyülün inkişafına, mövzunun dərindən dərk olunmasına kömək edir. Mən də bu üsuldan həvəslə istifadə edirəm".

Hazırda "Açıq dərs"ə hazırlaşan Salatın müəllim yaxın gələcəklə bağlı planlarından da danışıb: "Özümü tədrisi ingilis dilində aparılan auditoriyada görürəm. Bu planımı qısa zamanda reallaşdırmağı düşünürəm. Təbii ki, dövlətin yaratdığı başqa imkanlardan da yararlanmaq istəyirəm. Məsələn, Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura təhsili almaq hədəfimdir. Planlarımı yavaş-yavaş reallaşdıracağam".

**Ruhiyyə DAŞSALAHLI**